

## DAMƏT SALMANOĞLU

### HƏYAT BİR İMTAHAN İMİŞ...

Artıq altmış olub yaşım,
Tamam ağarıbdı başım,
Gəl sənə hikmət danışım,
Həyat bir imtahan imiş.

Ömür yolun duman qalır,
Ruhu verən özü alır.
Ocaq sönür, közü qalır,
Həyat bir imtahan imiş.

Tamam olan gün də gələr,
Arzular quzu tək mələr.
Veribləmi sənə xəbər
Həyat bir imtahan imiş.

Var bəlkə də günahımız,
Bağışlasın Allahımız,
Ağır gəlsin savabımız,
Həyat bir imtahan imiş.

Ay Damət, gələn köçəcək,
Əcəl şərbətin içəcək,
Sirat körpüsün keçəcək,
Həyat bir imtahan imiş.

### ÖMRÜN

Həyat gözəldir hər yaşda,
Əgər varsa ağıl başda,
Bir cizgi ol qələm qaşda,
Hədərə getməsin ömrün.

Başın üstə qopsa tufan,
Qəlb evini alsa duman,
Seç özünə qərib məkan,
Kədərə getməsin ömrün.

Yaşamaq eşqiylə oyan,
Bir işıq şövqündə dayan,
Sözün kirşanına boyan,
Qəhərə getməsin ömrün.

Qəlbini boş qoyma lələ,
Könlünnən axsın şəlalə,
Yaşa ömrü gülə-gülə,
Güdaza getməsin ömrün.

Qul belində görsən şələ,
Əlindən tut kömək elə,
Sən arif ol, uyma felə,
Marağa getməsin ömrün.

Birini sev könlün onda,
Göz qalmasın onda, bunda,
Qaynama sən hər qazanda,
Buxara getməsin ömrün.

### ŞAHSƏFİ BULAQ

Bulaqların şah bulağı,
Şah babamın yadigarı.
Ana yurdum Ərkivanın,
Gözəl Şahsəfi bulağı.

Suyu var ki, baltək şirin,
Göz yaşıtək kökü dərin.
Can dərmanı, suyu sərin,
Gözəl Şahsəfi bulağı.

Axşamçağı qız-gəlinlər,
Kuzəylə suya gəlirlər.
Həm qoynunda dincəlirlər,
Gözəl Şahsəfi bulağı.

Masallıya verib Allah,
Sudan dadan olur gümrah.
Susuz hər bir kəsə pənah,
Gözəl Şahsəfi bulağı.

### SINAQDAYIQ SANKİ BİZ DƏ

Yorulmaram, gözləməkdən,
Sənsən mənim əhdim, andım.
Bu sevgidən, məhəbbətdən
Alovlanıb odda yandım.

Bəlkə də dəydim xətrinə,
İncimisən, sən de, mənə.
Sən bir gülsən, gül ətrinə
Bələ məni, eşqdən yandım.

Həyat gözəl, ömür qısa,
Sınaqdayıq, sanki biz də
Parlaq səma, əlvan guşə,
Cilvələnib bəxtimizdə.

### ÖMRÜMƏ SEVGİNİN GÜNƏŞI DOĞDU

Axır ki, qış keçdi, bahar yetişdi,
Dağların buzlamış qarı ötüşdü.
Ömrümə sevginin günəşi doğdu,
Bu günəş ruhumu tamam dəyişdi.

Qayıtdı elə bil cavanlıq çağım,
Çağladı sinəmdə şeir bulağım.
Yaşamaq həvəsi doldu canıma,
Yasəmən qoxudu həyat növrağım.

Nazənin yarımın düşdüm toruna,
Məhəbbət ələdi sevda yoluna.
O yolun yolçusu ikimiz olduq,
Qolumu bağladı incə qoluna.

Damət, gözəllikdən zövq alacaqsan,
O ala gözlərdən məst olacaqsan.
Necə ki, sadiqdir sənə o dilbər,
Sən də öz sevgini saf tutacaqsan.

## *DÖZƏ BİLMİRƏM*

Sevmədim əzəldən ayrılıq sözün,
Özümdən gen tutdum ocağın, közün.
Yadıma düşdükcə sevgilim gözün,
Gözün həsrətinə dözə bilmirəm.

Bizi ayırmasın fələyin özü,
Sevgidən gül açsın sevdanın düzü.
Ağlımı azdırırır sevirəm sözü,
Sözün həsrətinə dözə bilmirəm.

Talehim, qismətim gül yasəmənim,
Gəl baxım gözünə gül, Yasəmənim.
Nazına olmuşam qul, Yasəmənim,
Nazın həsrətinə dözə bilmirəm.

## *GÜLÜM*

Bülbüllər oxuyur yenə bu səhər,
Gül üzlü yarıma nəğmələr söylər.
Gəlişinlə itib, yox olub qəhər,
Sanki yanağından nur alıb göylər.

Darıxır ürəyim onsuz qalanda,
Hər sözü, kəlməsi canım alanda.
Ürəyim təlaşa bürünür inan,
Saçının qoxusu üzdə qalanda.

Sevgilim, əziyyət vermə ürəyə,
Qoyma ki, güc versin hicran küləyə.
Sevgimiz əyandır hər kəsə, gülüm,
Böyüyüb sevgimiz, sığmır bələyə.

Bir ömür sevgisiz tənha gəzmişəm,
ALLAH göndərdiyi son qismətimsən.
Damətin ömrünə xoş gəldin, gülüm,
Yasəmən ətirlim, səadətimsən.

## *BİZİM QİSMƏTİMİZ İLAHİDƏNDİ*

Ruhumuz göylərdə bəlkə rastlaşıb,
Gəlib yer üzündə tapmısan məni.
Bir cüt göyərçin tək uçub sayrışıb,
Göylərdən yerlərə endirib səni.

Mənə lay-lay çalır həzin nəğmə tək,
Qəlbinin səsini dinlədikcə mən.
Sevgi yükünü də, gəl mənimlə çək,
Ruhumun sahibi ol bir təkcə sən.

Qaşların çatmadır hilala bənzər,
Ay üzlü nurludur o bəyaz cöhrən.
Gözlərin ceyranın gözünə bənzər,
Səndən də gözəli varmıdr görən?

Bizim qismətimiz İlahidəndi,
Əzəldən ruhumuz yaranıb qoşa.
İki qəlb, iki can qoşa bədəndi,
Yaşanan sevgimiz getməsin boşa.

## *XƏYALLARIN SÖHBƏTİ*

Dərin bir fikirə dalmışam yenə,
Xəyalən qayıtdım ötən ömrümə.
Qıvrımsaç çağlarım dayanıb elə,
Baxdı ötən ömrün məharətinə.

Sorğuya, suala çox tutdu məni,
Danış keçmişindən, olandan bir az.
Söylə etibarsız olub keçəni,
Qapqara saçları etmisən bəyaz.

İnan, mən deyiləm ömrə vəfasız,
Vəfasız zamanın elə özüdür.
Yaşayıb bir ömür qəmsiz, cəfasız,
İndiysə yaşlanan ürək özüdür.

Etiraf et, sənin də çox olub səhvin,
Nəfsinə aldanıb yüz səhvi seçdin.
Düşündün cavansan, bu dünya sənin,
Sözə qulaq asdın, sonra vaz keçdin

Qalın, gur saçını güclə darardın,
Bir baxışa neçə ceyran ovlardın.
Düşündün cavanam, mənimdir dünya,
Nazlı gözəllərdən sən zövq alardın.

İndi yaşlanmısan, həsrət çəkirsən,
Ötən çağlarına qəmi əkirsən.
Mənim səhvlərimi qınağa tutub,
Ötən illərə bir göz də dikirsən.

Həsrətin çəkmirəm ötən illərin,
İndiki çağın da əzizdir mənə.
Yasəmən qoxulu şirin günlərin,
Həzzi daha doğma, əzizdir mənə.

## SƏNİN

Mən yenə darıxdım bilirsən necə?
Çarmıxa çəkilib yuxum bu gecə.
Deyirəm bir qaçıb gələr gizlicə,
Ətrini alardım özündən sənin.

Gözəlim, goyçəyim, ağ göyərçinim,
Söhbət boxçasında sözü çin-çinim
Yasəmən ətirlim, özü şirinim.
Sevgini oxuyum sözündən sənin.

Atəşin yandırır qəlbimi inan,
Damətin sevgisi deyildir yalan.
Yoxdur yer üzündə sən təki canan,
Sevgimiz od alıb közündən sənin.

## SEVƏN QƏLBİMİZ

Səssizik duyanda titrək səsində,
Ürəyim titrəyir qəlbim alışır.
Çaşırsan sevgimin zənguləsində,
Xəyalın o anda mənlə barışır.

Bir gecəm bir ilə bərabər oldu,
Sabahı yuxusuz açdı gözlərim.
Sevgilim halımdan bixəbər oldu,
Niskilli misraya axdı sözlərim.

O sənli səhərin qanadlarına,
Qovuşmaq istərəm, çatmaq istərəm.
O dəniz gözlümün baxışlarına,
Ala gözlərinə baxmaq istərəm.

İki can, bir ürək yaşayırıq biz,
Sevgiylə döyünür bizim nəbzimiz,
Sənsizlik anını anladığım gün,
Birgə dayanacaq sevən qəlbimiz.

## ŞÜKÜR SƏNƏ, YA ALLAH

Gəlin şükür eyləyək, uca, ali ALLAHA,
Ol deyib, xəlq edib insan övladın.
Ucadan ucadır, ya rəbbim, adın,
Lə ilahə illəllah, şükür sənə, ya ALLAH.

Əmr edər surunu çalar İsrafil,
Əzəmətli qaya toz olar qəfil.
Əllərini göyə aç, dua eylə, ey qafil,
Lə ilahə illəllah, şükür sənə, ya ALLAH.

Zamanında müntəzirik hüzurda,
Sorğuya qorxusuz duraq o anda.
Orda eyni gedər nökər də, xan da,
Lə İlahə İlləllah, şükür sənə ya ALLAH.

Yaradana əyər etsək ibadət,
Siratda verilər bizə şəfayət.
Salavat sözündə var böyük hikmət,
Lə ilahə illəllah, şükür sənə, ya ALLAH.

## YANAĞINDA DONUB QALAN YAŞ DEYİR

Bir ülkər doğulub mənim bəxtimdə,
Ey saçı ağarmlş, cavanlaş deyir.
Ömrün payızıdı, dedim mənim də,
Yox-yox baharıdı, razılaş deyir.

Ala gözlərindən ildırım çaxır,
Odlayır qəlbimi yandırır, yaxır.
Ruhumu oynadlr, baxır, hey baxır,
Hakımım olaydın mənə kaş, deyir.

İşvəli, qəmzəli o, ərköyün qız,
Zülmət gecələrdə parlayan yalqız.
Bacar, ax qəlbimə, ürəyimə sız,
Arzu, diləyimə qulaq as, deyir.

Oduna yandığım, bil ki, günahdı,
Qəlbimdə tufandı, nalədi, ahdı.
Əsirin, qulunam, eşqinsə şahdı,
Yanağında donub qalan yaş, deyir.

## ALAGÖZ PƏRİM

Səni gözləməkdən yoruldu gözüm,
Çoxdandı görmürəm, sənə var sözüm.
Ay mənim sevgilim, ay ala gözlüm,
Gəl könül evimə aparım səni.

Nazını, qəmzəni saxla sabaha,
Ürək sənsizliyə dözməyir daha.
Sevgimə sadiqsən? Söylədin aha...
Gəl könül evimə aparım səni.

Mən sənin adına tər güllər dərim,
Keçdiyin yollara çiçəklər sərim,
Sevdiyinə sadiq, alagöz pərim,
Gəl könül evimə aparım səni.

Daməti etmisən özünə məftun,
Sevgiylə parlayan gözünə məftun,
Ay kimi nur saçan üzünə məftun,
Gəl könül evimə aparım səni.

## DAĞLAR QIZINA

Canlanır gözümdə sənli günlərim,
Necə də əzizdir, şirindir, gülüm.
Dumanlı günlərim, çənli günlərim,
Səndən əvvəl olub, sərindir, gülüm.

Gəl tutaq əl-ələ gəzək, dolanaq,
Gedək siz tərəfə coşaq, şadlanaq.
Gözümüz danışsın yanaq, odlanaq,
Bilirsən bu könlüm sənindir, gülüm.

Vaxt gələ, biz gedək sizin dağlara,
Bu gediş can verə qərib bağlara.
Enək çox öydüyün buz bulaqlara,
Deyirsən yamanca sərindir, gülüm.

Gül-çiçək toplayaq yamacdan-düzdən,
Bir süfrə də açaq şeirdən, sözdən.
Hərdən bir busə ver yanaqdan, üzdən,
Bu aşiq bir sənin dəlindir, gülüm.

İlmə-ilmə gedir, dayanmır zaman,
Yaşlanır, qocalır hər gənc, hər cavan.
Şairi ruhuyla dindirən canan,
Mənə ilham verən telindir, gülüm.

Dağlar qızı, yurda işıq saçarsan,
Ananla bir şah plov da asarsan.
Uşaq kimi boylanarsan, qaçarsan,
Deyərlər nə şıltaq gəlindir gülüm.

Xəyalən də olsa gəzdik elini,
Oxşayım, qoxlayım qıvrım telini.
Bilirəm sənin tək çılğın gəlini,
Kefsiz, bikef edən elindir, gülüm.

## GÜLLƏRDƏN GÖZƏLSƏN

Səhərin erkən çağında,
Bülbül gülün budağında.
Gördüm səni gül bağında,
Güllərdən gözəlsən, gözəl

Yamanca xoşuma gəldin,
Tər gülləri incə dərdin.
Özün güldən təzə-tərdin,
Güllərdən gözəlsən, gözəl.

Yanaqların lalədən al,
Gözlər gözəl, qaşlar hilal.
Gül əvəzi baxçamda qal,
Güllərdən gözəlsən, gözəl.

Saçın qıvrım, belin incə,
Addımların incə-incə.
Gül utandı sən gəlincə,
Güllərdən gözəlsən, gözəl.

Baxışın şux, gözün ala
Saldın məni haldan-hala.
Damət sənsiz çətin qala,
Güllərdən gözəlsən, gözəl.

## YAŞA ÖMRÜ KİŞİ KİMİ

Yalan dünya... qəribədir,
Sirlə dolu, sözlə dolu,
Közlə dolu bir kubədir.
Sirli qalan ölümü var, itimi var,
Hər bir donda biçimi var.
Qeybət adlı dil durmayan,
şeytan xislət, bəndəsi var.
şərbət kimi həm sözü var, söhbəti var.
Şirindi, baldan da şirin,
Dünyadı ocağın, pirin.
Gəl düşünək biz məntiqlə
Bu dünyanın yaşatdığı,
Bir-birinə daş atdığı,
Çoxlu sayda milləti var.
Təpəsi var, Dərəsi var.
Dünya boyda dünya gördüm,

Nələr gördün, sən nə gördün,
nə yaşadın insan oğlu?
Etiraf et, çətindimi?
Ancaq bü bır həqiqətdir,
Dünya boyda mən insanam
Mən yoxamsa, Dünya yoxdur.
Bizim ani dünyamızda
Təmiz yaşa haqq yemədən,
Yaşa ömrü kişi kimi,
Yaşama sən,
Arsızların yersiz-yersiz, adi sözə,
Ağartdığı dişi kimi.
Təbiətdir nizamlayan,
Bilməz sirrin heç kim onun.
Sonu sonsuz, insan oğlu,
Geyindirər kətan donun.
Ulu ata-baban kimi məğrur yaşa.
Haqqa boyun əyərsənsə tapar yığvalın İzzət.
Məğrur ol kişi kimi,
Yalan demə kələk gəlmə
Böhtan demə,
Yaşa, yaşa kişi kimi.

## *MƏN SAHİL, SƏN DƏNİZ*

Mən.... sakit, səssiz, səmirsiz,
Yaşıl gözlü, sevdalı,
çılğın dənizinə sadiq,
zaman küləyinin, həyat ələyinin,
dünya kirkirəsinin hər keşməkeşinə,
hər axışına, hər hay-küyünə dözən,
tab gətirən qumlu sahil....
Sən... Küləkdən şahə qalxan,
Fırtınayla, təlatümlə,
Bəzən nazla, bəzən sərin mehli,
Xoş avazla.
Hərdən dözülməyəcək qədər sərt,
Qatil gülləsi tək acı,
Dost xəyanəti qədər,
Ədanla, işvənlə,
Yersiz üzüntünlə gətirirsən kədər.
Hərdən də sakit, hərdən də şıltaq,
Körpə, şirin,
Sözə baxan utancaq bir uşaq.
Təsəvvür edirsən...
Yaşıl gözlüm.
Mən sahil, sən dəniz.
Ayrı qala bilmərik.
Bir döyünür, birgə duyur,
olanları, bitənləri,
ola biləcəkləri qəlbimiz.
Elə günahsız yerə,
Küləyində, tufanında,
səni bulandırmağa çalışan,
ağılsız bir adamın da
Heyifini məndən alıb,
qucaq açan ləpələrlə,
çırpılırsan, sovrulursan,
Qovrulursan sənə sadiq,
sənə bağlı etibarlı dağ sinəmə.
Həlim olub, sakit olub, həzin-həzin,
sərin-sərin qumlu, geniş,
sənə aid qəlbimə dolanda,
Sevgin gəlir,
Sərin olur, mehin dolur, saçlarıma,
Bəyəndiyin, bəyəzlamış,
saçlarımın rənginə.
Ayrılmayaq biz, ey mənə özünü,
Dəcəlliyini, şıltaqlığını sevdirən
Yaşıl gözlü, xoş nəfəsli dəniz.
Narıncı qumlarını, sahil adlı yarını.
İstəsən də unuda bilməzsən,
Sənə bağlanışımı.
Balıqqulaqlarının,
Məndən qorxaq baxışla,
sənə davranışını.
Gəl yaşılgöz dənizim,
dalğanı sar boynuma.
Gəl yaşılgöz dənizim!
Gəl yaşılgöz dənizim!

## *SƏSLƏ YENƏ...*

Yada düşür,
ötən günün xatirəsi,
İntizarı tumarlayır,
tellərinin hər cilvəsi.
Sıxır şahmar ilan kimi,
Boğur məni şirin həsrət.
Tənhalıqla vidalaşdır,
Buz bədənə ver hərarət.
Həzin-həzin o günlərə,
O anlara çağır məni.
İncə-incə öp sözümdən,
Gözlərinlə yoğur məni.
Səslə... Səslə sevgi payım.
Səslə məni gələcəyəm.
Xoşladığın o cığırda,
Öz kölgəmə çəkmək üçün,
Çinar kimi bitəcəyəm.